**İsmayıllı Rayon Statistika İdarəsində "Ümumdünya Statistika Günü" ilə əlaqədar tədbir keçirilmişdir**

Ümumdünya Statistika Günü ilə əlaqədar İsmayıllı Rayon Statistika İdarəsində geniş tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin İsmayıllı şəhərində ucaldılmış abidəsi ziyarət edib, onun əziz xatirəsi dərin ehtiramla yad ediblər.

Tədbirdə İsmayıllı Rayon Statistika İdarəsinin əməkdaşları, YAP-ın İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov, İsmayıllı rayon İcra Hakimiyyətinin nümayəndəsi Ariz Həsənov və İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının İƏD üzrə nümayəndələrinin bir qismi iştirak etdiblər..

Tədbirdə çıxış edən İsmayıllı Rayon Statistika İdarəsinin rəisi Əfqan Məmmədov əməkdaşları Ümumdünya statistika günü münasibətilə təbrik edib. O, müasir dövrdə statistikanın dövlət idarəçiliyində oynadığı mühüm rolu, sosial-iqtisadi inkişafın planlaşdırılmasında və düzgün qərarların qəbulunda əvəzolunmaz əhəmiyyətini vurğulayıb. Bildirib ki, statistik məlumatların dəqiqliyi və şəffaflığı cəmiyyətin etibarını artırır və idarəetmədə keyfiyyətli qərarların verilməsinə imkan yaradır.

Tədbirdə çıxış edən rəis müavini Daşdəmir Məmmədov statistikanın müasir cəmiyyətin inkişafında, iqtisadi göstəricilərin təhlilində və gələcək planlaşdırmada oynadığı strateji əhəmiyyəti diqqətə çatdırıb. Rəis müavini həmçinin insanların statistika sahəsinə olan inamının artırılmasının gələcəyin formalaşmasında mühüm amil olduğunu vurğulayıb.









